AZƏRBAYCAN XƏBƏRLƏRİ

Məleykə Abbaszadə DİM sədrliyindən çıxarıldı

Noyabr 19, 2026



Məleykə Abbaszadə

Məleykə Abbaszadə Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri vəzifəsindən azad edilib. Bununla bağlı prezident İlham Əliyev bu gün, noyabrın 19-da sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə M.Abbaszadə Bakı Dövlət Universitetinin (BDU) rektoru təyin olunub.

Bundan bir qədər əvvəl isə **Elçin Babayev** BDU-nun rektoru vəzifəsindən çıxarılıb.

M.Abbaszadə 1994-cü ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) sədrinin birinci müavini idi. 2000-ci ildə isə o, həmin quruma rəhbər gətirilmişdi.

Qurum 2016-cı ildən Dövlət İmtahan Mərkəzi kimi fəaliyyət göstərir.

E.Babayev isə 2019-cu ildən BDU-ya rəhbərlik edirdi.

Xatırlatma

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) 1992-ci ildə prezident Əbülfəz Elçibəyin sərəncamı ilə yaradılıb. Azərbaycanda ali məktəblərə qəbulda test üsulu ilk dəfə məhz həmin il tətbiq olunub.

Ekspertlər hesab edirlər ki, bu addımla o vaxt ölkədə tələbə qəbulundakı rüşvət və tapşırıqların qarşısı alınıb. Sonrakı illərdə test üsulu qorunub saxlansa da, qəbul qaydalarına müəyyən yeniliklər gətirilib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur